ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 8. CİLT, 1. SAYI, 2024, 85 - 94. s., TÜRKİYE

https://doi.org/10.30563/turklad. 1482183

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu makale taranmıştır

Makale Bilgisi / *Article information*

Makale Türü / *Article types* : Araştırma Makalesi / *Research article*
Geliş Tarihi / *Received date* : 11.05.2024
Kabul Tarihi / *Accepted date* : 06.06.2024
Yayın Tarihi / *Date published* : 20.06.2024

Atıf / *Citation*

Emirli, E. (2024). Türk Xalqlarının Təsəvvürlərində Ülkər Ulduzu. *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*. 8. Cilt, 1. Sayı, 85-94.

# TÜRK XALQLARININ TƏSƏVVÜRLƏRİNDƏ ÜLKƏR ULDUZU

*Ulkar star in the imagination of the turkic nations*

**ELNARE EMİRLİ**[1]

## Xülasə

Türk xalqlarının təsəvvüründə səma cisimləri haqqındakı örnəklər arasında da Ülkər ulduzu, onun etiologiyası ilə bağlı nümunələr özünəməxsus yer tutur. Müxtəlif nəzəri mənbələrdə və şifahi örnəklərdə çox parlayan Ülkər ulduzu bir çox hallarda ulduzlar topası, Türkiyə folklorşünaslığında "ulduz kümesi" kimi tanıdılır. Bu örnəkləri araşdırarkən ilk növbədə Ülkər ulduzunun adlandırılması məsələsinə toxunmağı lazım bilirik. Bir çox tədqiqat əsərlərində və lüğətlərdə bu ada müəyyən izahlar verilmişdir. Ülkər ulduzu bəzi şifahi örnəklərdə elə bizim ifadə etdiyimiz kimi, Ülkər adlandırılır. Müxtəlif Türk xalqlarının folklorunda Ülkər fərqli adlarla ifadə olunur.

XI-XIV əsrlər Türkmən alimlərinin əsərlərində tez-tez ulduz topası Pleyada (Ülkər) haqqında danışılır. Salar Babanın əsərində o, Sureya, Qazi Bürhanəddinin əsərində Pərvin adlandırılır. Türk xalqları arasında geniş yayılmış şifahi örnəklərə görə, qədim zamanlarda Ülkər havanı idarə edən ruh imiş. Ülkər nə vaxt görünməyə başlasa, öldürücü soyuqlar və fırtınalar başlayar.

Örnəklərdə əksər hallarda ulduzun maddi olaraq yaranışından söz açılır. Digər bir örnəkdə Ülkər adının yaranışından bəhs olunaraq, müəyyən hərəkətlə əlaqələndirilir. Bu mövzulu örnəklərin süjetlərində "göyə çıxma" motivi əsas yer tutur. Ülkərin digər bir canlı tərəfindən göyə aparılması faktına da Türk xalqlarının təsəvvürlərində rast gəlinir.

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, Türk xalqlarının dünyagörüşündə indiki vəziyyəti soyuq hava ilə əlaqələndirilən Ülkər ulduzu örnəklərdə yür üzündə yaşayan hər hansı canlıdır. Həmin canlı müəyən səbəblərdən göy üzünə qalxır, Ülkər ulduzuna çevrilir.

**Anahtar Kelimeler:** Türk Xalqları Folkloru, Ülkər Ulduzu, Çevrilmə, Təqib, Ulduz Topası

[1] Filologiya üzrə fəlsəfə doktoru, Azərbaycan Milli Elmlər Akademiyası, Folklor İnstitutu, Bakı/ Azərbaycan. El.ünvan: elnaramirli@gmail.com
ORCİD ID: https://orcid.org/0000-0002-9050-9139

**Abstract**

Among the examples of heavenly bodies in the imagination of the Turkic nations, the Ulkar star and the examples related to its etiology occupy a special place. The Ulkar star in various theoretical sources and oral examples, is often referred to as a "cluster of stars" in Turkish folklore. While examining these examples, we feel that it is necessary to touch upon the naming of the Ulkar star first. In many research works and dictionaries, certain explanations have been given to this name. In some verbal examples, the star of Ulkar is called Ulkar, just as we express it. In the folklore of different Turkic nations, this star is expressed by different names.

In the works of Turkmen scientists of the 11th-14th centuries, the star cluster Pleiades (Ulkar) is often mentioned. In Salar Baba's work, she is called Sureya, and in Gazi Burhaneddin's work, she is called Parvin. According to oral tradition widely spread among the Turkic nations, in ancient times Ulkar was the spirit that controlled the weather. Whenever the Ulkar begins to appear, the deadly cold and storms begin.

In the examples, in most cases, there is talk about the material creation of the star. In another example, the origin of the name Ulkar is mentioned, and it is associated with a certain action. In the plots of examples with this theme, the motif of "going to sky" occupies a central place. The fact that the Ulkar was taken to the sky by another creature is also found in the imaginations of the Turkic nations.

From all this, it can be concluded that in the worldview of the Turkic nations, the Ulkar star, which is associated with cold weather, was any creature on earth before transformation. Then that creature rose to the sky for various reasons and became the star of Ulkar.

**Keywords:** Folklore of Turkic Nations, Ulkar Star, Transformation, Persecution, Cluster of Stars

## 1. Giriş

Yeddi ulduzdan ibarət ulduz topası kimi tanınan Ülkər ulduzu dünyanın müxtəlif mədəniyyətlərində, ənənələrində özünəməxsus şəkildə tanınmış və bu təsəvvürlər hər etnosa məxsus şəkildə şifahi örnəklərin, xüsusən də əfsanələrin mövzusu olmuşdur.

Türk xalqlarının təsəvvüründə səma cisimləri haqqındakı örnəklər arasında Ülkər ulduzu, onun etiologiyası ilə bağlı nümunələr xüsusi yer tutur. Bu uldzula bağlı Türkiyə Türkləri, Azərbaycan Türkləri, altaylılar, tuvalılar və Cənubi Sibirin digər Türk xalqlarının dünyagörüşündə qiymətli və maraqlı məlumatlar vardır. Müxtəlif nəzəri mənbələrdə və şifahi örnəklərdə çox parlayan Ülkər ulduzu bir çox hallarda ulduzlar topası, Türkiyə folklorşünaslığında "ulduz kümesi" kimi tanıdılır. Bu mövzulu şifahi nümunələrin, onların variantlarının süjet xüsusiyyətləri, motiv özünəməxsusluqları türk xalqlarının təsəvvüründə bu ulduzun hansı şəkildə əks olunması haqqında müəyyən təsəvvür yaradır. Toplama materialları və onların əsasında aparılan araşdırmalara istinad edərək demək olar ki, ümumtürk təsəvvürlərində bu səma cisminin adlandırılması, yaranış məsələsi, yaranışın səbəbləri, xarakteri, kəmiyyət və s. məsələlərin tədqiq olunması vacib məqamlardır. Bu nümunələrdə səma cismi olaraq Ülkər bəzən tək ulduz, bəzən bir neçə ulduzdan ibarət ulduz topası kimi verilir; onun çevrilmədən əvvəlki halı əksər hallarda dua edərək çətinlikdən və ya təqibdən xilas olmaq arzusunda olan və ya digər varlıqların fiziki təsirinə məruz qalaraq göyə qalxan bir canlıdır. Türk xalqlarının dünyagörüşündə Ülkər eyni zamanda havaların soyuması ilə əlaqələndirilir, bu düşüncəni şifahi nümunələrinə də yansıdır.

## 2. Adlandırma məsələsi

Bu örnəkləri araşdırarkən ilk növbədə Ülkər ulduzunun adlandırılması məsələsinə toxunmağı lazım bilirik. Bir çox tədqiqat əsərlərində və lüğətlərdə bu ada müəyyən izahlar verilmişdir. M.Kaşğari bu sözə "Savaşda "...ülkər çərig" adlı bir hiylə var. Əsgərlər hər yandan bölük-bölük toplaşır, biri irəliləyincə, o birilər də onun dalınca gedir. Bu hiylə ilə məğlubiyyət az olur" şəklində izah verir (Kaşğari, 2006: 159). Müəllif ülkər adını hərbi fəaliyyətə məxsus şəkildə izah etsə də, onu "ülkər" adlı səma cismi ilə aydın şəkildə əlaqələndirmir. Ancaq qeyd etmək lazımdır ki, müəllifin verdiyi "biri irəliləyincə, o birilər də onun dalınca gedir" izahı Ülkər ulduzunun yaranışı haqqındakı süjetləri xatırlamağa əsas verir. Həmin süjetlərə görə, hər hansı səbəbdən bir insan, onun ardınca digərləri də göyə çəkilir. M.Kaşğarlı lüğətin başqa bir cildində isə Sürəyya ulduzuna Ülkər deyildiyini vurğulayır (Kaşğari, 2006: 41). Fərqli mədəniyyətləri təmsil edən bir çox şifahi nümunələrdə ulduzların digər varlıqlar tərəfindən göyə aparılması, eyni zamanda qızın ulduza çevrilməsi motivi yayğındır.

Ülkər ulduzu bəzi örnəklərdə elə bizim ifadə etdiyimiz kimi, Ülkər adlandırılır. Bir sıra Türk dillərində, eyni zamanda Qaraqalpaq əlifbasında ə səsi olmadığına görə folklor nümunələrində də Ülkər *Ülker* şəklində ifadə edilir. Qaraqalpaq Türklərinə məxsus "Ülker ilə Yedigen" adlı nümunədə qədimdə göy aləmində Ülker adlı bir igidin yaşadığı deyilir (Ergun, 1997:767). Qırğızlara məxsus örnəkdə bu ulduz Ürkör adlandırılır. "Bir vaxtlar Ürkör ilə Cetigen yerdə yaşayan insanlardan imişlər. Bir gün Ürkörün qızı Ülpüldök Suluunu Cetigen (yeddi oğru) qaçırtmış və göyə qaldırmışdır. Ürkör onu qovalayaraq arxasınca göyün üzünə çıxmışdır" (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:143).

Müxtəlif mənbələrə aid nümunələrdə bu ulduza aid edilmiş çeşidli adlarla qarşılaşırıq. XI-XIV əsrlər Türkmən alimlərinin əsərlərində tez-tez ulduz topası Pleyada (Ülkər) haqqında danışılır. Digər mənbələrdə də Pleyada adı ilə qarşılaşırıq. Bundan başqa, Ülkər ulduzunu Altaylılar Ulker, Ulu Xem tuva-uryanxaylıları Uqar, Ter Nor Tuva-uryanxaylıları Uxer, Xuk çayı vadisində yaşayan Uryanxaylılar: Ulxer, İrkut yüksəkliklərində yaşayan buryatlar: Mışi (onların dediyinə görə, bu bürc altı ulduzdan ibarətdir), Alar bölgəsinin Buryatları Odun-Mışit deyirlər (Potanin, 1883:137). Digər bir mənbəyə görə, Ülkər həm də Odun-Meçin adlandırılır (Potanin, 1881:126).

Bəzi xalqlar bu ulduzu müxtəli cür adlandırırlar və bir neçə ulduzdan təşkil olunduğu üçün deyilən adlar da məhz bu mənanı müşayiət edir. Yapon mədəniyyətində Pleiades "Subaru" kimi tanınır və adətən yeddi ulduz kimi xatırlanır. "Subaru" həmçinin Yapon dilində "birlik" deməkdir (Myths and Legends of the Pleiades, 2018). Digər bir mənbəyə görə, bu ulduz Salar Babanın əsərində Sureya, Qazi Bürhanəddinin əsərində Pərvin adlandırılır. Türk xalqları arasında geniş yayılmış şifahi örnəklərə görə, qədim zamanlarda Ülkər havanı idarə edən ruh imiş. Ülkər nə vaxt görünməyə başlasa, öldürücü soyuqlar və fırtınalar başlayar. Heyvanlar Ülkəri yaxalamaq qərarına gəlirlər. Növbəti dəfə yenə qış gələndə Ülkər yerə soyuq göndərib özü isti külün içinə girib yuxuya gedir. Heyvanlar onu yaxalayırlar. İstilərin əbədi olaraq davam etməsi üçün heyvanlar növbə ilə Ülkəri gözətləyirlər. Dəvə, at, inək və qoyun öz vəzifələrinin öhdəsindən uğurla gəlirlər. Onlar öz güclü pəncələri ilə Ülkəri orada saxlayıb qaçmağa imkan vermirlər. Ülkəri qorumaq növbəsi keçiyə çatır. Keçi çox dəcəl və məsuliyyətsiz idi. Hiyləgər Ülkər vəziyyətdən istifadə edib onun pəncəsini yırtaraq sürüşüb qaçmağı bacarır... Artıq Ülkər də istədiyi yerdə uça bilir, yerin hansı hissəsinə yaxınlaşsa, orada istilər düşür. Ülkər üfüqdən kənara çıxanda isə soyuqlar düşməyə başlayır. Eyni zamanda qeyd olunur ki, qış vaxtı səmada qərb tərəfdə Venera görünəndə soyuqlar düşür. Buna görə də bu planeti Dul Kadın – Qəzəbli qadın adlandırırlar. Camaat deyirdi ki, Ülkər Ayın oğlu, Venera isə qızıdır. Onlar birləşənə qədər yer isinməyəcək (Zvezdı i mirovozzrenii turkmen, 2017). Tuvalıların inancına görə, Ülkər ulduz topasında yeddi ulduz olanda havalar soyuq keçirmiş, ondan bir ulduz əksiləndən sonra havalar isinməyə başlayıb (Dyakonova, 1976:286). Digər mənbədə yazılır ki, Bayan Aul mahalının keçmiş sultanı Musa Çermanovun qırğızların ulduzlar haqqındakı müşahidələrinə əsasən verdiyi məlumata görə, Rus dilində "Лось" adlandırılan Ülkər bir yerdə yeddi ulduzun

mövcud olmasıdır, may ayında gizlənir və qırx gün görünmür; həmin müddət bitdikdən sonra yenidən şərqdən çıxmağa başlayır, cənubda "kus-col" – "quş yolu" adlandırılır. Ülkər ucalanda hava küləkli olur və davamlı yağış yağır. Əgər bu dövrdə yağış çox olarsa, ilin yaxşı keçəcəyi və mal-qaranın vəziyyətinin yaxşı olacağı gözlənilir. Yağış az yağarsa, quraqlıq və qıtlıq olacağı ehtimal olunur. Xami sartları Pleyadanı Uxır (Ухырь) (Monqolca inək), Tanqnu Uryanxaylar Ulqır (Ульгыръ), Uxer (Ухерь), Xotonlar Urkor (Уркорь); Monqollar, xalxalar və Dyurbutlar Maçit (Мачить); Altaylılar – Meçin (Мэчинь); Monqollar da Meçində altı ulduz sayırlar (Potanin, 1881: 125).

### 3. Ülkər ulduzu haqqında örnəklərin xüsusiyyətləri

Ülkər ulduzunun **soyuqla bağlanması** çevrilmədən əvvəlki yox, indiki halına aid edilir. Bir nümunədə Ülkərin soyuq hava ilə bağlı olması "Növbə inəyə gəldiyində o, qəzəblənib Ürkeri qaçırmışdır. Beləliklə, Ürker yerdə sadəcə qırx gün qalmalı olmuş və qış mövsümü də uzanmışdır" (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205) şəklində verilir.

Ülkər ulduzunun etiologiyasından bəhs edən örnəklərdə **say məsələsi** də diqqəti cəlb edir. Türklərin kosmoqonik bilikləri içərisində Ülkərlə bağlı təsəvvürlər xüsusi yer tutur, simvolik olaraq əksər hallarda yeddi rəqəmi ilə bağlı olur (Roux, 2011:140). Türk xalqları folkloruna xas əksər nümunələrdə bu ulduz topasının yeddi ulduzdan ibarət olması haqqında danışılır, bu say bəzi hallarda altıya enə bilir. Tuvalıların təsəvvürlərinə görə, əvvəllər yeddi ulduzlu olan Ülkər ulduz topasında indi altı ulduz var; bir ulduzu Dolan-burxan oğurlayıb (Dyakonova, 1976:286). Türk xalqlarına xas nümunələrdə də Ülkər ulduzunun təqib ilə meydana gəlişindən bəhs edən örnəklər az deyildir. Tarbaqatayda və Altayda yaşayan Qırğızların Urker (Уркерь) adlandırdığı bu bürcə altı ulduz aid edilir (Potanin, 1883). Pleyada Tuvalılarda qadın bürcü adlanır, əvvəl onun yeddi, indi isə altı ulduzdan ibarət olması vurğulanır. Ulduz topasında say dəyişikliyinin səbəbini Cənub bölgəsində yaşayan Tuvalılar göy üzündə baş verən qarşıdurmalar, müharibələr nəticəsində itki və ölüm hallarının olması ilə izah edirlər (Dyakonova, 1976:286).

Ülkər ulduzunun yeddi rəqəmi ilə bağlanması və yeddi insan kimi təsvir edilməsi. müxtəlif dünya xalqlarının folklor nümunələrində də yer alır. Qədim Yunan təsəvvürlərində Pleyada iki tanrıdan törəyən yeddi bacıdır. Allahlar padşahı Zevs qızların ona qarşı üsyan edən atalarını cəzalandırıb göyləri əbədi olaraq çiyinlərində saxlamağı tapşırır. Daha sonra qızları da atalarının yanına qaldırır (The Pleiades: Facts about the "Seven Sisters", 2023). Qərbi Mono Hindliləri Pleyadanın ərləri tərəfindən evdən qovulan bir neçə qadın olduğunu söyləyirlər (Myths and Legends of the Pleiades, 2018).

Ülkər ulduzundan bəhs edən örnəklərdən söz açarkən Ülkər personajının xüsusiyyətləri də nəzərə alınmalıdır. Xalqın təsəvvüründə bu ulduzun yaranışı etiologiyanın təməlində dayanan personajın xarakteri, fəaliyyəti, süjetin gedişindəki rolu ilə sıx bağlıdır. Türk xalqlarının təsəvvürlərində Ülkər ulduzunun əvvəlki halını təmsil edən Ülkər personajı bəzən tək bir insanı, bəzi örnəklərdə isə "Ülkərlər" adlandırılaraq bir ailəni təmsil edir. Özbəklərə xas bir əfsanədə isə tək halda Ülkər adlandırılsa da, yeddi nəfəri ifadə edir. "Deyilənə görə, Ülkər, əslində, yeddi qız imiş" (Ergun, 1997: 540).

Ülkər ulduzundan bəhs edən örnəklərdə **cins xüsusiyyətinə** də toxunmaq yerinə düşər. Belə ki, örnəklərin əksər hissəsində Ülkər ulduzu əvvəl qadın cinsini təmsil edən insan kimi göstərilir, hətta bu ulduzun heç bir dua və nəzir almadığı halda qadınlara xüsusi diqqət və qayğı göstərdiyi də söylənilir (Dyakonova, 1976:286). Ülkər az sayda nümunələrdə kişi cinsinə aid edilir, bir örnəkdə isə qurd şəklində təqdim edilir. Bir söyləyicinin dediyinə görə, Ülkər əvvəl böyük bir soxulcan imiş (Potanin, 1881:126). Qırğızlar arasında Ülkərin Ayın oğlu olması ilə bağlı inanclar gəzir. Tarbaqatayda və Altayda yaşayan Qırğızlar deyirlər: "Urker, aydın olı, çolpan, aydın kızı, yəni Pleyada Ayın oğlu, ildırım isə Ayın qızıdır (Potanin, 1881:126). Türkmənlərin təsəvvürlərinə və folklor örnəklərinə görə də Ülkər Ayın oğlu, Venera isə qızıdır. Onlar birləşənə qədər yer isinməyəcək (Zvezdı i mirovozzrenii turkmen, 2017 ).

Türk xalqlarının şifahi nümunələrində hər hansı səma cismi və ya təbiət hadisələrindən bəhs edən nümunələrdə süjetə başqa bir səma cismindən və hadisəsindən bəhs edən ünsürlərin də daxil olması halı ilə dəfələrlə qarşılaşmışıq. Ülkər ulduzu ilə bağlı süjetlər haqqında onu söyləmək olar ki, bu ulduzun yaranışından bəhs edən əksər nümunələrdə digər səma cisimlərindən bəhs olunmur. Qarşıya çıxan az sayda örnəklərdən məlum olur ki, Ülkər personajı Ay və Günəş haqqındakı süjetə daxil ola bilmişdir. Monqolca yaxşı bilən (Котонский дзянги) Xocaqulun dediyinə görə, Ay böyük qardaş, Günəş kiçik qardaş, Ülkər isə kiçik bacıdır. Mənbədə Ülkər həm də Odun-Meçin adlandırılır (Потанин, 1881:126).

Toplama materiallarını incələyərkən Ülkər personajının özünəxas xüsusiyyətləri və digər personajlarla qohumluq əlaqələri də diqqəti cəlb edir. Qırğızlara xas “Ülkerin qızı gözəl Ülpüldök” adlı nümunədə deyilir ki, bir zamanlar Ülker ilə Yediger yer üzünün sakinləri imiş. Bir gün Ülkerin qızı gözəl Ülpüldökü yeddi quldur qaçırıb göy üzünə çıxarmışdır. Ülker də onların ardınca qovalayıb çıxmış. Ülpüldökü qaçıran yeddi quldur o vaxtdan bəri Altın Kazakın ətrafında fırlanmaq, Ülker də arxasınca düşüb onları tutmaq üçün qaçırmış (Ergun, 1997:609). Ş.İbrayev arxivinə məxsus bir örnəkdə isə Ülpildek bu şəkildə ifadə olunur. “Qırx quldurun başçısı Kırankara Göy üzünün gözəli Ülpildekə elçi yollamağa və onunla evlənməyə qərar vermiş” (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205). Azərbaycan Türklərinə məxsus, Azərbaycan əfsanələrinin süjet göstəricisində 345A-1 kodu ilə verilən “Ot əvəzinə verilən qız” adlandırılmış süjetə görə (Əmirli, 2023:360), Ülkərin atasının mal-qarasının otu qurtarır. O ağanın yanına ot istəməyə gedir. Ağa ot əvəzində qızını istəyir. Çarəsiz ata razılaşır. Qız isə razılaşmır, atası-na yalvarır ki, onu ağaya verməsin. Qız Allaha dua edir ki, ona kömək etsin. Ata səhər eşiyə çıxır ki, hər tərəf yaşıllaşıb, amma qızı yoxdur, ulduz olub göyə çəkilib (Acalov, 2005:39, 21; Şükürbəyli, 2010:64, Qarabağ: folklor da bir tarixdir, 2014: 16). Eyni süjetin digər variantına görə (345A-2) bir “gavur” Ülkərə aşiq olur. Qızın atasının otu qutarır, gedib gavurdan ot istəyəndə əvəzində Ülkəri istəyir. Ülkər atasına razı olduğunu desə də, gizlin yerdə dua edib ulduza çevrilir. İlk iki nümunədə xarici görünüşü qabardılan və gözəl bir qız kimi təsvir edilən Ülkər sonrakı iki nümunədə daxili xüsusiyyətləri önə çəkilərək aciz, çarəsiz bir qız kimi tanıdılır.

Digər səma cisimləri ilə bağlı süjetlərdə olduğu kimi, Ülkər ulduzu haqqındakı süjetlərdə də bu ulduzun yaranışı özünəxas xüsusiyyətlərə sahibdir. Belə ki, bu süjetlərin əsas cəhəti yaranışın baş verməsi üçün hər hansı zəminin hazırlanmasıdır. Müəyyən münbit şərait formalaşması yaranışın əsasında dayanan möcüzənin baş verməsi üçün mövcud olan səbəblərlə müşayiət olunur. Bu səbəblər müxtəlif örnəklərdə müəyyən fiziki, psixoloji-mənəvi şərtlərlə tənzimlənir və bu da süjetlərin fərqli şəkildə motivləşməsi üçün əsas verir. Belə ki, diqqət yönəltmək istədiyimiz məqamlardan biri də bu nümunələrdə yaranışın baş vermə xüsusiyyətləridir.

Örnəklərə istinad edərək demək olar ki, Ülkər ulduzunun yaranışı əvvəllər yer üzündə mövcud olan məlum canlının daha sonra göyə qalxması ilə mümkün olmuşdur. Göy üzünə qalxma isə müxtəlif şəkildə baş vermişdir. Qırğız inancına görə, Ülkər ulduzu fiziki təsirlə göy üzünə qalxaraq orada parlamağa başlamışdır. Belə ki, əvvəllər böyük bir soxulcan olan Ürker yüz qoyunun yerini tuturmuş. Dəvə və inək onu məhv etmək istəyirlər. İnək irəli gedib dırnaqları ilə qurda zərbə vurur. Ürker inəyin dırnağı arasından sürüşüb göy üzünə qalxır (Potanin, 1881:126).

Qaraqalpaq təsəvvürlərində Ülkərin təqib ilə göyə qalxması ilə bağlı düşüncələr yer alır. Bir örnəyə görə, bir gün altı quldur Ülkər adlı bir igidin bacısını qaçırtmış, sübh açılan kimi qardaşı onları təqib etmiş, altı quldur və Ülkərin bacısı göyün üzünə qalxmışlar (Ergun, 1997:767).

Türk xalqları təsəvvürlərində rast gəlinən digər məqam Ülkərin digər bir canlı tərəfindən göyə aparılmasıdır. Özbəklərə xas bir nümunəyə görə, haramilər Ülkərin ulduzlarından birini aparıb özlərinə qulluqçu etmək istəmiş, bu məqsədlə gecə vaxtı qızlardan

ən gözəlini qaçırtmışlar. Yeddi quldurun arxa tərəfində digərlərindən ayrı dayanan tək ulduz həmin yeddi bacıdan biridir (Ergun, 1997:540).

Ülkərin yaranış səbəblərindən biri də aciz vəziyyətdə qalan qızın xilas olmaq üçün etdiyi duadır. Azərbaycan Türklərinə məxsus bir əfsanədə deyilir ki, Ülkərin atasının mal-qarasının otu qutarır. Atası gedib ağadan kömək istəyir. Ağa ot əvəzinə Ülkəri istəyir. Vəziyyəti öyrənən qız xilas olmaq üçün dua edir, ulduza çevrilib göyün üzünə çəkilir (Acalov, 1988:39). Təqib ilə göyün üzünə çıxan Ülkər ulduzundan bəhs edən Qırğızıstan Türklərinə xas "Ürkör (Ülkər) haqqında" adlandırılmış bir nümunədə deyilir: "Bir vaxtlar Ürkör ilə Cetigen yerdə yaşayan insanlardan imişlər. Bir gün Ürkörün qızı Ülpüldök Suluunu Cetigen (yeddi oğru) qaçırtmış və göyə qaldırmışdır. Ürkör onu qovalayaraq arxasınca göyün üzünə çıxmışdır (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:143).

Təqibin nəticəsi olaraq yaranışın gerçəkləşdiyi digər bir nümunəyə görə, Kırankara və onun yeddi qulduru gözəl Ülpildeki ələ keçirmək üçün təqib etmiş, sıra ilə göyün üzünə çəkilmişlər (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205). Nümunədən ilk baxışda belə anlaşılır ki, indiki Ülkər ulduzu sanki çevrilmədən əvvəlki Ülkər personajı deyildir: Ülkər ulduzu əvvəllər Ülkərin qızı Ülpildek olmuş, sonra göyə çəkilmişdir. Çevrilmədən sonra öz adı ilə deyil, anasının adı ilə adlandırılmışdır. Bu süjetin qarşıya digər variantı məsələni aydınlaşdırmağa yardım edir. Belə ki, "Ülkerin qızı gözəl Ülpüldök" adlı bir Qırğız əfsanəsində deyilir ki, bir zamanlar Ülker ilə Yediger yer üzünün sakinləri imiş. Bir gün Ülkerin qızı gözəl Ülpüldökü yeddi quldur qaçırıb göy üzünə çıxarmış. Ülker də onların ardınca qovalayıb çıxmış. Ülpüldökü qaçıran yeddi quldur o vaxtdan bəri Altın Kazakın ətrafında fırlanmaq, Ülker də arxasınca qaçıb onları tutmaq üçün qaçırmış (Ergun, 1997:609). Demək ki, Ülkər də qızını təqib edərək göyə çəkilmişdir. Bu yerdə bir daha məlum olur ki, süjetlərin gedişatı haqqında dəqiq fikirlər söyləmək üçün variantların müstəsna rolu vardır. Eyni zamanda qeyd etmək lazımdır ki, bundan əvvəlki tədqiqatlarımızda da örnəklərdə bu və ya digər şəkildə müəyyən uyğunsuzluqlarla qarşılaşmışdıq. Belə uyğunsuzluqların səbəbi bəzi hallarda variantlaşma xüsusiyyəti deyil, söyləyici təhkiyəsi ola bilir. Bu istiqamətdə geniş araşdırma aparmaq olar.

Məlum olduğu kimi, əksər örnəklərdə sözügedən ulduzun Ülkər adlandırılması ad faktoru ilə – onun çevrilmədən əvvəl eyniadlı insan olması ilə bağlanır. Qarşıya çıxan bir örnəkdə adlandırılmanın səbəbi fərqli şəkildə izah olunur, əlaqəli personaja aid fəaliyyətlə, yəni müəyyən hərəkətlə əlaqələndirilir. Bir örnəkdə deyilir ki, Yetikarakşı (yeddi quldur, Böyük Ayı) hücum etdikdə onlar hürkmüş və ona görə də Ürker olaraq adlandırılmışlar (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205). Digər bir örnəyə görə də, yeddi quldurun hücumu zamanı hürkdüyünə görə Ürker adını almış əvvəl qız olan bu ulduz onların ortasındakı ən parlaq ulduzdur. Ürkerler bir araya toplanıb onu qoruyarmışlar. Yoxsa yeddi quldur gəlib qızı qaçırıb apararmış (Ergun, 1997:646). Üçüncü nümunədə Ülkərin hürkməsi poetik şəkildə verilir:

"Ürkör, Ürkör, üç ulduz

Hürküb hara gedirsən?.." (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:143).

Bundan əvvəlki araşdırmalarımızda da (Əmirli, 2023) qeyd etmişdik ki, səma cisimlərinin yaranışından bəhs edən süjetlərdə bir çox hallarda söyləyici çevrilmə qismini ifadə etmir. Bu nümunədə də bu qəbildəndir. Söyləyici yalnız Ülkər adının yaranışını təsvir etməklə kifayətlənir. Bu qəbildən bəzi örnəklərdə yaranış aydın göstərilmir, təqib verilir, daha sonra həmin təqib göyün üzündə davam edirmiş kimi təqdim edilir. Ülkər bacısını xilas etmək üçün davamlı olaraq yeddi qulduru qovmuş. Lakin quldurlar onu yaxına buraxmamışlar (Ergun, 1997:540). .

Əksər örnəklərdə hər hansı təsirə məruz qalaraq şəkil dəyişən Ülkərdir. Yəni təsvir olunan hadisələr, iştirakçısı olan personajlar və onların son vəziyyəti Ülkərlə əlaqəlidir. Bəzi örnəkdə isə çevrilməyə məruz qalan Ülkər bacısını axtarmaq məqsədilə göyə çıxır. "Ülkər ilə Yedigen" adlı bir qazax mətnində Ülkərin bacısını yeddi quldur qaçırır. "Bunu gec öyrənən Ülkər danın ağarmasından da əvvəl qızı axtarmağa gedir. Elə o vaxtdan bəri sübh vaxtı göyün

üzündə Ülkər ulduzu doğmaqdadır. Deyirlər ki, Yedigen ulduzunun altısı həmin quldur, biri isə Ülkərin bacısıdır" (Ergun, 1997:647).

Ülkər ulduzu haqqındakı nümunələrdə diqqəti cəlb edən məsələlərdən biri də *məkan məsələsidir*. Səma cisimləri haqqındakı təsəvvürlərdə bir çox hallarda əvvəl yer üzündəki bir insan kimi təqdim olunan səma cismi daha sonra hər hansı səbəbdən baş verən möcüzə ilə göy üzünə çəkilir və bir daha yerə qayıtmır. "Yeti Karakşı (Böyük Ayı) və Ürker (Ülkər) haqqında" adlandırılan bir şifahi nümunədə yer üzünə məxsus personajlar eyni vaxtda gah yerdə, gah da göy üzündə təsvir olunurlar. Qırx quldurun başçısı Kırankara göy üzünün gözəli Ulpildeklə evlənmək qərarına gəlir. Ülpildek onunla evlənmək istəmir. Kırankara Ülpildekin obasına hücum edir, onu ələ keçirmək üçün təqib edir. "Kırankara və onun yeddi qulduru Göy üzünün şimal hissəsindəki Demirkazıkın ətrafını mühasirəyə alaraq burdakı obalara (takım ulduzlara) nəzarət edərlər. Bu yeddi quldura (Böyük Ayıya) dörd quldur başçılıq edir. Digər üç quldur isə onların əl buyruqçusu olur. İki tərəfdəki iki parlaq ulduz isə Akbozat və Gökbozatdır (batırların atları). Onlar iplə Dəmirkazıka bağlanır. Uzun qıvrım ipləri də aydın görsənir. Atlar Demirkazıkın ətrafına dolanaraq otlayırlar" (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205). Azərbaycan Türklərinə məxsus nümunələrdə əvvəl insan olan Ülkər hər hansı səbəbdən göyə çəkilir, indiki Ülkər ulduzuna çevrilir. Göyə çəkilən personaj artıq yer üzünü tərk edir, daha sonra ancaq göy üzündə mövcud olur, yerlə əlaqəsi kəsilir. Tarbaqatayda və Altayda yaşayan Qırğızlar bir əfsanədə məkan məsələsini belə ifadə edirlər: "…Urker isə inəyin dırnağının altından sürüşüb çıxdı və göy üzünə qalxdı. Urker yay aylarında görünməz olur - Yerə enir. Əgər o, suya düşərsə (yəni, su və ya çayın olduğu üfüqdə yuvarlanmağa başlayarsa), qız sərt, quru torpağa düşərsə, yaxşı keçəçək" (Potanin, 1881:126). Göründüyü kimi, Ülkərin yay aylarında yerə enməsini vurğulayan söyləyici daha sonra bununla bağlı inancı ifadə edir. "Ülkər ulduzu haqqında başqa mətn isə inancdır. Qeyd olunur ki, qoyun sürüsünü elə yerdə yatırdıllar ki, onu Ülkər tutmasın. Əgər heyvanın olduğu yerə Ülkər ulduzunun şüası düşərsə,heyvan qırılacaq. Burada ulduzun yaranışı haqqında danışılmır, sadəcə Ülkər ulduzu ilə bağlı bir inanc təsvir olunur (Şərur folklor örnəkləri, 2016: 39). Başqa bir variantda deyilir: ". O şüa kimi vurursa, iflic olur. Hansı qız, gəlin, uşağ belə qırışıb oturursa, sakitcə oturur, dünya-aləm əhlinnən işi yox, heç kəsi eşitmir (Şərur folklor örnəkləri, 2023: 21). Digər bir örnəkdə yaranışdan sonra da Ülkərin yerə enib-qalxması və ona insan kimi davranılması faktı qarşıya çıxır. Ürkör haqqındakı bir nümunədə Ürkör insandan yaradılmış üç ulduz kimi tanınır. Onun qırx gündən bir Yerə enib yenidən Göyə qalxdığı sanılır. Bundan dolayı Ürkörə insan kimi davranılıb sorğu-sual edərək söylənilən bu şeirlə qarşılaşırıq:

– Ürkör, Ürkör, üç ulduz,

Ürkərək hara gedərsən?

– Cöö celimə gedirəm.

– Cöö celimdə nəyin var?

– Əkin əkəcək oğlum var,

İpək hörən qızım var" (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:143).

Örnəkdən məlum olduğu kimi, personajların kainatın iki qatı arasında fəaliyyət göstərməsi, gediş-gəliş etməsi maraq doğurur.

Elə mətnlər var ki, orada bir neçə səma cismi və ya hadisəsindən bəhs olunur. Şifahi nümunələrdə hər hansı səma cisminin yaranışı və ya göy cisimləri ilə bağlı təbiət hadisələrinin baş verməsindən bəhs edən söyləyici bunu digər səma cisminə və ya hadisəsinə də aid edə bilir, bəzi hallarda isə birini digəri ilə əlaqələndirir. Bu örnəkləri araşdırarkən etiologoiya məsələsi nəzərə alınmışdır. Məsələn Böyük Ayı bürcünün yaranışından bəhs edən bir örnəkdə bu bürcün yaranışı, Ay və Günəş, eyni zamanda Ülkər ulduzunun yaranışı ilə əlaqələndirilir: "Qırx quldurun başçısı Kırankaranın obalara hücum edib otlaqları talan etməsindən, zalımlığından

qorxan obalar Ay və Günəşin getdiyi yolu təqib edərək Göy üzündə dairə şəklində dolanaraq, qorxu içində dayanmadan köç etməyə məcbur olurmuşlar. Oba yalnız ayda bir dəfə dincələ bilirmiş. Oba, köç dəstələri dincəlmək istəyir, ancaq yeddi quldurun onlara çata biləcəyindən və Ülpildeki zorla əllərindən alacağından qorxarmışlar (Türk Dünyası Edebiyat Metinleri Antolojisi, 2001:205). Jetı Karakşi haqqındakı mətndə həm də Ülkər ulduzundan bəhs olunur (Potanin, 1883:200).

Ülkər ulduzu bəzi söyləyicilər tərəfindn Dan ulduzu ilə qarışdırılır. Səhərin açılmasına işarə edən Dan ulduzu haqqında bir örnəkdə deyilir: "Ulduzlara baxıb vaxtı-vədəni bilmək olur. Dan ulduzu çıxanda bilirsən ki, səhər açılır. Dan ulduzuna Ülkər, Sarı ulduz, Çoban ulduzu da deyirlər. Bu ulduz çıxanda çoban sürünü otarmağa aparır" (Acalov, A., Bəydili, C., 2005:34). Bundan başqa, ulduzlar haqqında "insanlar gecə çıxan ulduzu və ya bürcləri səhər ulduzu ilə səhv salır, səfərə çıxır və yolunu azır" şəklində izah Azərbaycan folklorunda. Karvanqıran ulduzu ilə bağlı söylənən nümunələrin süjetini xatırladır.

Ülkər ulduzunun həm də Sarı və Çoban ulduzu adlandırılması məsələsinə aydınlıq gətirmək ulduzlarla bağlı şifahi nümunələrin variantlarını nəzərdən keçirməklə mümkün ola bilər.

Ülkər ulduzunun son vəziyyəti – göy üzündəki yerinin təsviri Türk xalqları təsəvvürlərində müxtəlif xarakter daşıyır. Bu mənbələrin birində yazılır: şamanlara məxsus bubnaların dəri örtüyünün yuxarı hissəsi səma sferasını simvollaşdırır. Burada Ay və Günəş, müxtəlif bürclər və ulduzlar – Pleyada, Venera və s., göy qurşağı, süd yolu və s təsvir olunur (Dyakonova, 1976:277). Bəzi örnəklərdə əgər bu vəziyyət – ulduzların düzülüşü hər hansı təqib, xilasolma və ya fiziki təsirin göstəricisi kimi verilirsə, bir örnəkdə bu düzülüş Ülkərin qorunması məqsədinə xidmət edir. "Ürkerler bir araya toplanıb onu qoruyarmışlar. Yoxsa, yeddi quldur gəlib qızı qaçırıb aparармış (Ergun, 1997:646). Digər mənbədə ulduzun yeri belə verilir: "İki Sümbüldən biri Lak-sümbül, digəri Ulkon-sümbül adlanır; birincisi Samanyoluna daha yaxındır. Bundan başqa, Demirkazık, Ak-bozat və Gök-bozat, İlek bürcü, Reşeto (Pleyada), Carık-culdus (Səhər şəfəqi) və iki axşam şəfəqi: Tanqnın-sarı-culdus (parlayan sarı ulduz) və İsek-Kırqan" (Beryozkin, Duvakin).

## 4. Nəticə

Bütün bunlardan belə nəticə çıxarmaq olar ki, Türk xalqlarının dünyagörüşündə indiki vəziyyəti soyuq hava ilə əlaqələndirilən Ülkər ulduzu örnəklərdə hər hansı əsas personaj və ya onunla qohumluq əlaqəsində olan digər personajdır. Bu personaj hər hansı səbəbdən göy üzünə çəkilir. Göy üzünə çəkilmə çevrilmə ilə müşayiət olunur. Çünki əvvəl başqa varlıq kimi təqdim olunan Ülkər göy üzünə çəkildikdən sonra ulduz şəklini alır. Həmin şəkil dəyişdirmə hissəsinin verilməməsi kosmoqonik məzmunlu örnəklərin xaraketrik xüsusiyyətlərindən biridir. Bundan başqa ümumiləşdirmə apararkən demək lazımdır ki, örnəklərdə əksər hallarda ulduzun maddi olaraq yaranışından söz açılır, bir örnəkdə isə Ülkər adının yaranışından bəhs olunaraq, müəyyən hərəkətlə əlaqələndirilir. Bu mövzulu örnəklərin süjetlərində "göyə çıxma" motivi əsas yer tutur. Ülkərin digər bir canlı tərəfindən göyə aparılması faktına da Türk xalqlarının təsəvvürlərində rast gəlinir. Dua ilə, təqib ilə, digər bir varlıq tərəfindən göyə aparılma ilə müşayiət olunan möcüzə nəticəsində bir neçə ulduzdan ibarət Ülkər ulduz topası yaranır.

**Kaynaklar**

Acalov, A. (1988). *Azərbaycan mifoloji mətnləri*. Tərtib edəni, ön sözün və şərhlərin müəllifi *Acalov* A. Bakı: Elm, 1988, 196 s.

Acalov, A., Bəydili, C. (2005). *Əsatirlər, əfsanə və rəvayətlər.* Tərtib edənlər: Acalov A., Bəydiıi C. Bakı, Şərq-Qərb, 304 s.

Atdayev, S.D. (2017). *Zvezdı i mirovozzrenii turkmen.* Harodi i reliqii Evrazii. 10 (1-2). (Атдаев, С. Д. (2017). Звезды в мировоззрении туркмен. Народы и религии Евразии, 2017, 10(1-2), 89-94. file:///C:/Users/user/Downloads/zvezdy-v-mirovozzrenii-turkmen.pdf

Beryozkin, E. Y. ve Duvakin, E.H. (1940). *Tematiçeskaya klassifikasiya i raspredeleniye folklorno-mifoloqiçeskix motivov po arealam*. Analitiçeskiy kataloq. Gifford, № 2269: 156. (Березкин, Ю.Е., Дувакин Е.Н. Тематическая классификация и распределение фольклорно-мифологических мотивов по ареалам. Аналитический каталог) https://www.ruthenia.ru/folklore/berezkin/i89.html

Dyakonova, V.P. (1976). *Reliqiozniye predstavleniya altaytsev i tuvintsev o prirode i çeloveke. Priroda i çelovek v reliqioznix predstavleniyax narodov Sibiri i Severa.* L., Nauka, s. 268-291. (Дьяконова В. П. (1976). Религиозные представления алтайцев и тувинцев о природе и человеке // Природа и человек в религиозных представлениях народов Сибири и Севера. Л.: Наука, 1976. С. 268–291)

Ergun, M. (1997). *Türk Dünyası Efsanelerinde Deyişme Motifi.* II Cilt, Metinler, Türk Dil Kurumu Yayınları, 1279 s.

Əmirli, E. (2023). *Azərbaycan əfsanələrinin poetikası və süjet göstəricisi.* Bakı, 360 s.

Kaşğari, M. (2006). *"Divan" lüğat-it-türk".* 4 cilddə. I cild. Tərcümə edən və nəşrə hazırlayan: Əskər R. Bakı, Ozan

Kaşğari, M. (2006). *"Divan" lüğat-it-türk".* 4 cilddə. III cild. Tərcümə edən və nəşrə hazırlayan: Əskər R. Bakı, Ozan, 400 s.

Qasımova F. (2016). *Şərur folklor örnəkləri.* I kitab. Tərtib edən: Qasımova F. Bakı: Elm və təhsil, 2016, 348 s.

Lusinda, R. (2018). *Myths and Legends of the Pleiades*. https://lucindariley.co.uk/myths-and-legends/

Potanin Q.H. (1881). *Oçerki severo-zapadnoy Monqolii: rezultati puteşestviya, ispoln. v. 1876-1877 qq. po poruçeniyu İmperat.* Rus. Sankt-Peterburg, tom 2. (Потанин, Г. Н. (1881). Очерки северо-западной Монголии: результаты путешествия, исполн. в 1876—1877, том 2, гг. по поручению Императ. Рус., Санкт-Петербург).

Potanin Q.H. (1883). *Oçerki severo-zapadnoy Monqolii: rezultati puteşestviya, ispoln. v. 1876-1877 qq. po poruçeniyu İmperat.* Rus. Sankt-Peterburg, tom 4. (Потанин Г. Н. (1883). Очерки северо-западной Монголии: результаты путешествия, исполн. в 1876—1877, том 4, гг. по поручению Императ. Рус., Санкт-Петербург.

Roux, Jan-Paul. (2011). *Eski türk mitolojisi.* Çeviri: M.Y.Sağlam. Ankara, Bilgesu, 149 s.

Rüstəmzadə İ. (2012). *Qarabağ: folklor da bir tarixdir.* II kitab. Tərtib edən Rüstəmzadə İ. Bakı: Elm və təhsil, 2012, 484 s.

Sohn, R., Mann. A. (2023). 19 july. The Pleiades: Facts about the "Seven Sisters" star cluster https://www.space.com/pleiades.html

Süleymanova L. (2023). *Şərur folklor örnəkləri.* II kitab. Tərtib edən: Süleymanova L. Bakı, Elm və təhsil, 2023, 304 s.

**Etik, Beyan ve Açıklamalar**

**1.** Etik Kurul izni ile ilgili;

☒ Bu çalışmanın yazar/yazarları, Etik Kurul İznine gerek olmadığını beyan etmektedir.

☐ Bu çalışmanın yazar/yazarları, …………………….. Üniversitesi ……………….. Etik Kurulu'nun tarih ……….. sayı ………. ve karar………. ile etik kurul izin belgesi almış olduklarını beyan etmektedir.

**2.** Bu çalışmanın yazar/yazarları, araştırma ve yayın etiği ilkelerine uyduklarını kabul etmektedir.

**3.** Bu çalışmanın yazar/yazarları kullanmış oldukları resim, şekil, fotoğraf ve benzeri belgelerin kullanımında tüm sorumlulukları kabul etmektedir.

**4.** Bu çalışmanın benzerlik raporu bulunmaktadır.